# Naxçıvan Hərbi Kollecində "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir təşkil olunub

**Naxçıvan Hərbi Kollecinin və Naxçıvan Hərbi Prokurorluğunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Vətənə sədaqət müqəddəsdir" və "Vətəni müdafiə hər bir vətəndaşın borcudur" mövzularında tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində kursantların tədris şəraiti və dərslərlə, kollecin kitabxanasında təşkil edilmiş kitab və jurnal sərgisi ilə tanış olublar.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra vətənpərvərlik mövzusunda videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamı ilə bu ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hər bir vətəndaşın, xüsusilə hərbi qulluqçuların və kursant heyətinin Konstitusiya dəyərlərinə, milli suverenliyə və yüksək vətənpərvərlik ruhuna olan bağlılığını daha da möhkəmləndirəcək.

Kursantlara təhsillərində uğurlar arzulayan Samir Seyidəhmədli onların Naxçıvan Hərbi Kollecinin adını yüksək tutaraq göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edərək vurğulayıb ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində 2 il davam edən tədris dövründə kursantların qidalanması, təhsili, sosial təminatı və asudə vaxtının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb.

Naxçıvan hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Aqil Axundov dövlət başçısının sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyətindən danışıb. Vurğulayıb ki, Azərbaycan Konstitusiyası ölkənin hüquqi və siyasi sisteminin təməlini təşkil edərək hüquq sisteminin bütövlüyünü və sabitliyini təmin edir.

Naxçıvan Hərbi Kollecinin rəisi, polkovnik-leytenant Yaşar Hüseynov hərbi kollecin qısa zamanda böyük uğurlara imza atdığını qeyd edib. Bildirib ki, cari tədris ilində muxtar respublikanın bütün dövlət orqanları, eləcə də media nümayəndələri ilə hərbi kollec arasında əlaqələr qurulub, birgə layihələr icra olunaraq tədbirlər keçirilib.

Sonda Ulu Öndər Heydər Əliyevin və Müzəffər Ali Baş Komandan İlham Əliyevin Konstitusiyamızın qəbulu, suverenliyimizin bərpasına dair tarixi xidmətlərindən bəhs edən qısametrajlı videoçarx nümayiş olunub, xatirə şəkli çəkdirilib.

Azərbaycan.- 2025.- 26 fevral (№ 43).- S.15.